# Ölü şəhərin mühafizəçisi

**Müqəddəs borc**

Hər bir insan dil açıb danışandan gördükləri və eşitdikləri haqda düşüncələrə qərq olur.

Özlüyündə bir maraq aclığı yaranır: kim, nə, hara, görəsən, nədən, məgər və bəs?.. Elə bu suallar da onun bir növ tarixi yaddaşının gündən-günə irəliləməsini təzahür etdirir. Ələlxüsus soykökünü, məkanının özəl keçmişini öyrənmək istəyənlərin maraq dairəsi hər bir fərdin demək olar ki, «şəxsiyyət vəsiqəsi» sayılır. Keçmişini öyrənməyən, bilməyən şəxs şəxsiyyət kimi formalaşa bilməz. Keçmişini bilməyənlər gələcəyini kor-koranə, cahil yaşayarlar. Elə buna görə də insan öz tarixi keçmişini öyrənmək üçün düşündüyü sualların cavablarını tapmalıdır. Bu cavabları tapmaq üçün tarixi öyrənməlidir.



Keçmişimizə ekskursiya hər bir xalqın nümayəndəsinin bilik dairəsini zənginləşdirir. Xüsusilə gənc nəslin marağı və bu marağın əhatə dairəsinin genişləndirilməsi hər birimizi düşündürməlidir. Bu, xalqın yaşlı nəslinin müqəddəs borcudur.

**Vətən tarixin özətidir**

Vətən hardan başlanır? Vətən nə deməkdir? Bu sualları indi hər bir körpə cavablandırmağı bacarır: Vətən üstündə dayandığım və addım atdığım məkandan başlayır. Vətən mənim dünyaya göz açdığım yer, ərazi. Ancaq onu da qeyd edək ki, doğulduğu məkanla birgə hər kəs öz vətəninin tam təsdiqini, təyinini düzgün seçə bilməz. Ölkəmizdən kənarda doğulanlar mənsub olduğu xalqın övladı kimi ana vətəni, ata yurdu dedikdə də yaşadığı dövlətin ərazisini deyil, damarlarında axan qanın, itaət etdiyi dinin, mənsub olduğu xalqın övladı kimi öz Vətənini təsdiq etməyə çalışır və edirlər. Vətənin dar günündə onun harayına gəlirlər və əsil vətəndaşlıq hünəri göstərirlər. Nə yaxşı ki, belə xalq, yurd, millətsevərlərimiz vardır!..

Qəbələnin tarixi qədimliyi vətənsevərlərə məlumdur.

2400 illik tarixi olan qədim «İpək yolunun» üstündə yerləşən Qəbələ şəhərinin adını hələ eramızın I əsrində yPaşamış Roma alimi Böyük Plininin «Təbii tarix» əsərində Kabalaka, yunan coğrafiyaşünası Klavdi Ptolomey (II əsrdə) Xabala, ərəb tarixçisi Bəlazuri (IX əsr) Xəzər adlandırmışdır. İlk dəfə Azərbaycan alimi A. Bakıxanov (XIX əsr) «Gülüstani-İrəm» əsərində Kbala və ya Xabalanın Qəbələ olduğunu göstərmişdir.

Qəbələ tarixin yaddaşına həm də alınmaz, məğlubedilməz qala - şəhər kimi daxil olmuşdur.

Eranın 262-ci ilində Albaniya Sasanilər tərəfindən işğal olunsa da Qəbələ özünün siyasi və iqtisadi əhəmiyytini itirmədi. V əsrin ikinci yarısında (464-cü ildə) Albaniya öz müstəqilliyini müvəqqəti itirdiyi və şimal köçərilərinin basqınlarının şiddətləndiyi dövrdə ölkənin paytaxtı Qəbələdən Partava (Bərdəyə) köçürülür. Qəbələ 1068-ci ildə Şirvanşah Fəriburzun, 1120-ci ildə gürcü çarı III Davidin, 1386-cı ildə Teymurləngin, 1538-ci ildə Səfəvi şahı I Təhmasibin, 1734-cü ildə Nadir şahın qoşunlarının işğalı ilə üz-üzə dayanmış, lakin öz əhəmiyyətini tam itirməmişdir. 1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycan xanlıqlara, sultanlıqlara bölünmüşdür. Bu zaman Qəbələ də ayrıca sultanlıq olmuşdur; axırıncı sultanı isə İ. B. Qutqaşınlının atası Naib Nəsrullah Sultani olmuşdur.

XVIII sonlarından etibarən sultanlıq Qəbələ mahalı adlandırılmışdır.




1841-ci ildə çar Rusiyasının apardığı islahatlar nəticəsində Azərbaycanda xanlıqlar ləğv edilərək quberniya və qəzalarla əvəz olunmuş, Qəbələ rayonu Yelizavetpol (Gəncə) quberniyasının Nuxa qəzasının tərkibinə daxil olmuşdur.

**Qədimiliyin bu günkü əyaniliyi**

Qəbələnin adı çəkiləndə ilk növbədə qədim Qafqaz Albaniyasının 900 illik bir dövrdə paytaxtı olmuş Qəbələ şəhəri və onun bu günə gəlib çatmış möhtəşəm qala divarları xatırlanır. Rayon mərkəzindən 20 kilometr cənubi-qərbdə, indiki Çuxur Qəbələ kəndinin şimal-şərq hissəsində Courlu və Qara çaylarının suayrıcında yerləşən qədim Qəbələ şəhəri mühüm siyasi, iqtisadi ticarət mərkəzi kimi tanınmış, dünyanın Babil, Troya, Pompey, Karfagen kimi şəhərləri ilə müqayisə olunur.

Azərbaycanın görkəmli arxeoloqlarından S. Qazıyevin, Q. Əhmədovun, İ. Əliyevin, F. Qədirovun və başqalarının burada apardıqları tədqiqatlar nəticəsində antik dövrə aid böyük binaların, qala divarlarının qalıqları, istehsal və sənətkarlarla bağlı maddi-mədəniyyət abidələri aşkara çıxarılmışdır. Bu qədimliyi isə əyani şəkildə ekskursiya edib görmək və qədim tarixlə «danışmaq» daha maraqlıdır.

**Mühafizəçi**

İlk növbədə Qəbələ Arxeoloji Mərkəzinin sərgi zalının müşahidəçisi olduq. Burada çox maraqlı eksponatlarla tanış olduq. Gördüyümüz hər bir eksponat təmiz və mühafizə şəklində - qoruyucu vasitələrin içərisində saxlanılırdı. Bina müasir formada tikilmişdir. Rayonumuzun qonaqları, eləcə də bütün səyahətçilər tərəfindən eksponatlara maraqla və diqqətlə baxılır, eksponatlar haqqında səyahətçilərə zəngin məlumatlar verilirdi. Ancaq nədənsə bu eksponatların tapıldığı məkanı təbii görmək və ziyarət etmək insanda maraq oyadırdı. Elə buna görə də biz təbii qoruğa üz tutduq. Yolun hər iki tərəfində - qoruğa girişdə böyük qapılar var idi və üzbəüz olan bu qapılar mühafizə olunurdu. Mühafizəçi diqqətimizi cəlb etdi. Bilirsiniz niyə? Öz işi, davranışı ilə. İnsanların daha çox olduğu bir məkanda mühafizəçi işləmək məsuliyyətli və maraqlıdır. Ancaq rayon mərkəzindən uzaq bir kənddə lal, ölü bir şəhərin mühafizəçisi olmaq məncə daha da məsuliyyətlidir və çətindir. Tarixin haylı-haraylı, sevincli-kədərli "simfoniyasını", qədimliliyin bütün canlılarının "səslərini" təkbaşına "dinləmək" özü bir hünərdir. Mühafizəçinin icazəsi ilə qədim şəhəri "gəzdik". Ayaq atdığımız hər qarışda bir tarix yatırdı. Qala qapısının uçuq-saçıq görkəmi bizə "nələr" danışdı... Qala divarında bitən gül kolu belə çox maraqlı idi. Cıdır düzünün xarı bülbülü kimi bəlkə də bu gül kolu da qədim Qəbələnin tarixini əks etdirirdi... Kim bilir...

Qazıntı işləri gedən sahədə ikinci qapıdan daxil olduq. Arxeoloji mərkəzin sərgi zalında gördüyümüz eksponatları burada daha zəngin şəkildə gördük. Kurqanlar, insan sümükləri, müxtəlif əşyalar; bir sözlə, insanların yaşamı üçün lazımi avadanlıqların qalıqları, şəhərin su və kanalizasiya xətləri belə bizdə maraq doğurdu. Bu əşyaların hər biri sanki dil açıb bizlərlə danışırdı. Qazıntı işləri çox ustalıqla, diqqətlə aparılırdı. Keçmiş bu günkü və gələcək nəsillərə aydın şəkildə və olduğu kimi çatdırmaq üçün bir zərgər dəqiqliyi ilə iş aparılmışdı.

Eşitmişdik ki, belə yerlərdə ilanlar olur. Ancaq lal, «ölü» şəhəri gəzdikcə maraq qorxuya üstün gəlirdi. Saatlarla bu əraziləri gəzdik və ən kiçik qazıntı işləri (yarımçıq olsa belə) bizi qədim Qəbələnin zəngin tarixinə səyahət etdirdi.

Mühafizəçinin isə diqqəti bizə daha xoş təsir bağışlayırdı.

Axı bu təkcə bizə deyil, işinə diqqəti və «ölü» sayılsa belə qədim şəhərin mühafizəsinə məsuliyyəti sayılırdı...

Biz qədim tarixlə görüşüb, sanki «dərdləşib» oradan xoş təəssüratla ayrıldıq. Mühafizəçi isə bu şəhərin qədim sakinləri ilə hər gün yorulmaq bilmədən «danışır» və onları tək qoymur. Əsil «canlı» şəhər komendantı kimi...

**Xeyirxahlıq missiyası**

Qəbələdə ilk arxeoloji qazıntılara ötən əsrin əvvəllərində başlansa da, geniş miqyaslı arxeoloji araşdırmalar 1959 - 1990-cı illərə aiddir. Qəbələnin arxeoloji tədqiqinə 2005-ci ildən SEBA (Seul - Bakı) Azərbaycan - Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü və maliyyə dəstəyi ilə yenidən başlanılmışdır.

Qəbələ Arxeoloji Mərkəzi 2012-ci ildə Qəbələ Dövlət Tarix-Bədii Qoruğu ərazisində yaradılmışdır.

Onu da qeyd edək ki, bu mərkəz Azərbaycan - Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü və maliyyə dəstəyi ilə inşa olunmuşdur.

Tarixi araşdırmaq, gələcək nəsil üçün zəngin tarixiliyi sübut etmək məsuliyyətli və mötəbər bir işdir. Ən başlıcası ən ülvi və ən ümdə xeyirxahlıq missiyasıdır. Torpaq altında qalan şəhərin «aşkar» edilməsi hələ çox qazıntı işlərini, araşdırmaları gözləyir... Tarixi yaşatmağa çalışan hər bir təşkilata, xeyirxah insanlara və bu tarixin mühafizəçilərinə uğurlar arzulayıraq.

**Bibixanım İSAYEVA.**




QƏBƏLƏ

qəzetinə

2024-cü ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


## İTMİŞDİR

Qəbələ rayon Mıxlıqovaq kənd sakini **Rüstəmov Qaşqay Dünyamin oğluna** məxsus **kassa aparatı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Kürd kənd sakini **Ələmzadə Ozal Müşviq oğluna** məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Oğuz rayon sakini **Yunisov İsa İsrafil oğluna** məxsus **sürücülük vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Nohurqışlaq kənd sakini **Niyazlı Mirpaşa Nabir oğluna** məxsus Fövqəladə Hallar Nazirliyi tərəfindən verilmiş **xidməti vəsiqə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Böyük Əmili kənd sakini **Nəsrullazadə Xaqani Qəhrəman oğluna** məxsus VAZ-21154 seriyalı, 55 DX 465 nömrəli minik avtomobilinin qeydiyyat nişanı itdiyi **üçün** etibarsız sayılır.


*Payız lövhələri.*


Redaktor
Azad Məmmədov.

TƏSİSÇİ:
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1050*